# Tehran şəhərində İqtisadi Əməkdaşlıq Təşkilatının 22-ci Regional Planlaşdırma Şurasının iclası.

İqtisadi Əməkdaşlıq Təşkilatının 22-ci Regional Planlaşdırma Şurasının iclası 2012-ci ilin 9-11 iyul tarixlərində İran İslam Respublikasının Siyasi və Beynəlxalq Təlimlər İnstitutunda keçirilmişdir. Tədbirdə İqtisadi Əməkdaşlıq Təşkilatına üzv olan Azərbaycan, Əfqanıstan, İran, Qazaxıstan, Qırğızıstan, Pakistan, Özbəkistan, Tacikistan və Türkiyə nümayəndə heyətləri iştirak etmişdir. Azərbaycan Respublikasının nümayəndə heyətinin tərkibi Nəqliyyat Nazirliyinin, İqtisadi İnkişaf Nazirliyin, Fövqəladə Hallar Nazirliyinin, Dövlət Statistika Komitəsinin və İran İslam Respublikasındakı Azərbaycan Respublikasının Səfirliyinin əməkdaşlarından ibarət olmuşdur. Tədbirdə Dövlət Statistika Komitəsinin "Məlumatların yayılması" şöbəsinin sektor müdiri Azər Əhmədov iştirak etmişdir. Nümayəndə heyətimizə İran İslam Respublikasındakı Azərbaycan Respublikasının Fövqəladə və Səlahiyyətli Səfiri cənab Cavanşir Axundov rəhbərlik etmişdir.




İqtisadi Əməkdaşlıq Təşkilatının 22-ci Regional Planlaşdırma Şurasının iclası 2012-ci il üçün nəzərdə tutulmuş tədbirlərinin yerinə yetirilməsi və gələcəkdə yeni layihələrinin həyata keçirilməsinə dair hesabat sənədinin hazırlanmasına həsr olunmuşdur. İqtisadi Əməkdaşlıq Təşkilatının Katibliyi tərəfindən iştirakçıların təmsil etdikləri qurumlara uyğun olaraq "Ticarət və investisiyalar", "Nəqliyyat və rabitə", "Enerji, Minerallar və Ətraf mühit", "Kənd təsərrüfatı, Sənaye və Turizm", "İnsan resursları və dayanaqlı inkişaf", "Narkotik və mütəşəkkil cinayətkarlıq", "Beynəlxalq əlaqələr", "Elmi tədqiqatlar və Statistika" sahələri üzrə ayrı-ayrılıqda komitələrin iclasları keçirilmişdir. Tədbirin sonuncu günü bütün komitələrin iclaslarında razılaşdırılmış məsələlər əsasında yekun sənəd qəbul edilmişdir.

13 avqust 2012-ci ildən başlayaraq növbəti üç il müddətində İqtisadi Əməkdaşlıq Təşkilatına Azərbaycan Respublikası sədrlik edəcəkdir və bununla əlaqədar İqtisadi Əməkdaşlıq Təşkilatının Baş Katibi vəzifəsinə cənab Şamil Ələsgərov təyin olunmuşdur. Bundan əlavə, 2012-ci ilin 13-16 oktyabr tarixlərində Bakıda Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi tərəfindən dövlət başçıları və xarici işlər nazirləri səviyyəsində İqtisadi Əməkdaşlıq Təşkilatının Sammiti keçiriləcəkdir.